# AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

## F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI ELMİ-METODİKA ŞÖBƏSi



Şairə-dramaturq Kəmalə Ağayevanın anadan olmasının 75 illik yubileyi münasibətilə

# Könül verdiyim ellər

***( medodiki vəsait)***

**Bakı-2012**

Tərtibçi: Könül Səmədzadə - F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin baş kitabxanaçısı

Redaktor: Fizurə Quliyeva - F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru

# I. Həyat və yaradıcılığı

***Vətən gözüm nuru, könül məbədim,***
***Ona bu canımı fəda istədim.***
***Yurduma, elimə heyran olum mən,***
***Vətən daşlarına qurban olum mən.***

Zərif duyğularının poetik şəkildə təsirli ifadəsinə, həyatın adilikləri içərisində heyrətedici məqamları görə bilməsinə və bunun da nəticəsində qələmə aldığı şeirlərində insanın ruhunu dilə gətirən, ona romantik duyğular aşılayan, düşündürən Kəmalə Ağayeva Azərbaycan poeziyasında öz dəst-xəttinə malik unudulmaz söz sahiblərindən biridir.

Azərbaycan ədəbiyyatında qadın şairlərimizin möhtəşəm bir sırası var: Nigar Rəfibəyli, Mədinə Gülgün, Hökumə Billuri, Mirvarid Dilbazi və nəhayət ki, Kəmalə Ağayeva... Kəmalə xanımın şeirlərini oxuyanda qeyri-ixtiyari onun müəllifinin məhz xanım olduğu açıq-aşkar duyulur. Çünki bu şeirlərin ahəngində elə bir zəriflik, həssaslıq, həzinlik var ki, istər-istəməz bu ipək ovqatlı misraların ürək döyüntüsündə məhz qadın məhəbbətinin, həsrətinin döyüntüləri hiss edilir.

Şair-dramaturq Ağayeva Kəmalə Ağa qızı 1937-ci il iyul ayının 7-də Naxçıvan şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1957-ci ildə sənədlərini Xarici Dillər İnstitutuna vermiş, fransız dili fakultəsini bitirmişdir. 35 il orta məktəbdə fransız dili müəllimi işləmiş eyni zamanda 30 il də Naxçıvan Dövlət Dram Teatrında ədəbi hissə müdiri vəzifəsində çalışmışdır. Kəmalə Ağayeva 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 30 ilə yaxındır ki, Azərbaycan Teatr Xadimləri Cəmiyyətinin üzvüdür.

Şairə xanım yaradıcılığa lap erkən yaşlarından başlamışdır. Yazdığı şeirlər müntəzəm olaraq dövrü mətbuatda çap olunmuş, şeirlərinə musiqilər yazılmışdır. İlk şeirini 12 yaşında, ilk dram əsərini isə (“Məhsəti”) 21 yaşında yazmışdır.

Kəmalə Ağayeva 20 şeirlər kitabının, 16 mənzum dram əsərin, 200-ə qədər oçerk və bədii yazıların, həmçinin uşaqlar üçün “Göyçək Fatma”, “Məlikməmməd”, “Tıq-tıq xanım” nağıl pyeslərin müəllifidir. Qələmə aldığı dram əsərləri respublikanın bir sıra teatrlarında tamaşaya qoyularaq müvəffəqiyyət qazanmışdır. İlk dram əsəri 1965-ci ildə Fəxri Fərmanla mükafatlandırılmışdır.

Kəmalə Ağayevanın şeirləri rus, türkmən, özbək, tacik, fars, fransız və sair dillərə tərcümə olunub, özü də fransız dilindən ana dilimizə tərcümələr etmişdir. Şeirlərinə bir çox mahnılar bəstələnmişdir.

Kəmalə Ağayevanın yaradıcılığının əsas qayəsi mənəvi saflığa çağırışdır. Mənəvi saflıq, insan paklığı, dünyada əmin-amanlıq, haqq-ədalət arzuları Kəmalə şeirlərinin leytmotivliyini təşkil edir. Kəmalə Ağayeva hansı mövzuya müraciət edirsə-etsin, o, öz nəfəsi, öz duyğusu, öz deyim tərzi ilə fərqlənib. O, həmişə düşündüyünü deyib, vicdanının hökmünə sadiq olub, ötəri-keçəri vəziyyətlərə uyğunlaşmağa çalışmayıb. Həqiqi yaradıcılıq sevinci, iztirab və axtarışlarla dolu ömür yolu, xalqa və sənətə olan böyük sədaqəti onun həyat amalına çevrilib. Məhz bu xüsusiyyətlər Kəmaləni xalqa sevdirmiş, ona şöhrət qazandırmışdır. Kəmalə yaradıcılığına yaxından bələd olanlar bir fikirlə tam razılaşarlar ki, şairənin

poeziyasında haqq sözün, daxili əqidənin, vicdani yaddaşın xeyir-duası var. Cəsarət və kövrəklik, həssaslıq və mülayimlilik, təmkinlilik və ehriras onun yaradıcılığında qəribə bir vəhdət təşkil edir.

Respublikanın əməkdar mədəniyyət işçisi Kəmalə Ağayeva yaradıcılığı dövründə bir sıra xarici dövlətlərdə rəsmi səfərlərdə olub. Amerikada, Fransada, Türkiyədə, Özbəkstanda və sair ölkələrdə dostluq şeirləri ilə çıxış etmiş şairə xanım bir çox tərifnamələr, təşəkkürnamələr almış, Amerikada isə "Şərəfnamə"ilə təltif olunmuşdur. Şairə Kəmalə Ağayeva 75 illik yaradıcılığı dövründə müxtəlif medallar və fəxri fərmanlarla təltif olunub. Yaradıcılığı həmişə dövlət tərəfindən yüksək qiymətləndirilən Kəmalə Ağayeva Respublikanın əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsüdür.

## II. Yübiley tədbirlərinin keçirilməsi

50-ci illərin sonu, 60-cı illərin əvvəllərində poeziyanın sərt yollarında uğurlu addımlarını atan xanım sənətkarlarımızdan biri də respublikamızın əməkdar mədəniyyət işçisi, şairə-dramaturq Kəmalə Ağayevadır. Yuxarıda qeyd etdiyimiz kimi, Kəmalə Ağayeva hələ 50-ci illərdə Bakıda təhsil alarkən şeir yazmağa başlamışdır. İlk  "Hilal olaydım"şeiri "Azərbaycan" jurnalında dərc olunmuş, onun ardıyca isə "Gənclik" adlı şeiri çap olunmuşdur. Daha sonralar isə onun "Baharın gözü", "Gül yarpağı", "Daş piyalə", "Sən olmasaydın", "Arpaçayın nəğməsi", "O dodaqlarda gözüm qaldı", "Tanrıya heyranam mən" və s. kitabları ilə yanaşı, "İsmət", "O bizim dağların oğludur", "Mənim Tanrım", "Apardı sellər Saranı", "Zərintac", "Unudulan sözlər" "Kaman səsi" və s. pyesləri yazıldı və səhnə təcəssümünü tapdı.

Özünəxas üslubu, ifadə tərzi olan şairə-dramaturq Kəmalə Ağayeva pyeslərini yazarkən yalnız klassik ədəbi irsdən deyil, xalq yaradıcılığı və dastanlarımızdan, aşıq ədəbiyyatımızdan da bəhrələnir, Azərbaycan xalqının çoxəsrlik poetik məktəbinin ənənələrinə həssas münasibətilə seçilir. Onun pyeslərinin dili həm sadə, həm də ifadəlidir. Məna ilə gözəllik, ağıllı fikirlərlə səlis ifadə vəhdət təşkil edir. Yaratdığı hər bir surət öz vəziyyətinə, həyati görüş və anlayışlarına görə düşünür və hərəkət edir. Və beləliklə yaratdığı hər bir sənət əsərinə görə həmişə xalq tərəfindən sevilən və qiymətləndirilən şairə xanımın bu günlərdə anadan olmasının 75 illik yubileyi qeyd olunur.  Bu münasibətlə respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, kitabxanalarda və başqa yerlərdə bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur. Həmçinin, F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da silsilə tədbirlərin keçirilməsi planlaşdırılıb. Kitabxanada ilk növbədə Kəmalə Ağayevanın yaradıcılığının geniş təbliği üçün kitab sərgisi tərtib edilməlidir.

Kitab sərgisi bir sıra başlıqlar altında keçirilə bilər. Məsələn: "Poeziyamızın şairə xanımı-Kəmalə Ağayeva", "Kəmalə Ağayeva - 75", "Şairsən, nəğməkarsan, demək...əbədiyyətsən", "Ürək yanmasa, gözdən yaş çıxmaz", "Vətənə sevdalıyam"və s. Sərginin nümunəsini veririk:

_______1_______

_______2________ _______3_________
______4_______ _____5 _______

___6___ ___7___
__8____ __9____

___10___

1. Başlıq. “Şairsən, nəğməkarsan, deməк... əbədiyyətsən”
2. Kəmalə Ağayevanın portreti.
3. Kitabları.
4. Kəmalə. Bir gül kimi.
5. Kəmalə. Könül verdiyim ellər.
6. Kəmalə. Əlixan məhəlləsi.
7. Kəmalə. Vətənə sevdalıyam.
8. Kəmalə. Qönçələr.
9. Kəmalə. Məhsəti.
10. Dövrü mətbuatda dərc olunmuş materiallardan nümunələr.


















Kəmalə Ağayeva yaradıcılığını yaxından izləmək üçün keçiriləcək tədbirlərdən biri də ucadan oxudur. Ucadan oxu oxucular arasında ən çox sevilən tədbirlərdən biridir. Ucadan oxu kiçik yaşlı oxucular üçün daha maraqlıdır. Şeirlərin ucadan oxunuşu uşaqların zehni inkişafına daha çox təsir edir, onların şeri duymaq, başa düşmək qabiliyyətini daha da artırır. Ucadan oxuda Kəmalə Ağayevanın "Gözəl olsun uşaqlar", "Əsgər andı","Ana dilim", "Azərbaycan", "Müəllimim" və s. şeirlərindən istifadə etmək olar. Nümunə üçün ucadan oxunun keçirilməsinə Kəmalə Ağayevanın "Gözəl olsun uşaqlar" adlı şeirinin təqdim edirik.

İnsanlar gül kimidir,
Bir gün onlar da solar.
Uşaqlar, bu dünyada
Yalnız yaxşılıq qalar.

Hər an mehriban olun.
Qocaya həyan olun.
Ədəb-ərkan gözləyin
Siz gözəl insan olun.

Dosta sadiq olun ki,
Dar gündə gərəkdir o.
Elə təmiz olun ki
Desinlər mələkdir o.

Danışmayın yalanı,
Yalan xəcalət eylər.
Siz danışın olanı,
Düzlük səadət eylər.

Tanrını unutmayın,
Odur bizi yaradan.
Əyri yolu tutmayın,
Seçin ağı qaradan.

Ay sevimli uşaqlar,
Hər an mehriban olun.
Gözəl yaşamaq üçün,
Siz gözəl insan olun.

Yubiley münasibətilə təşkil olunan tədbirlərdən biri də görüşdür. Yubilyarla yanaşı görüşə kitabxanaçı şairə xanımın yaradıcılığına yaxından bələd olan insanları, şair və yazıçıları, ədəbiyyat müəllimlərini bir araya toplasa daha yaxşı və oxucular üçün də maraqlı olar. Görüşdə kitabxanaçı ilk əvvəl şairə xanımın həyat və yaradıcılığından tədbir iştirakçılarına qıcaca məlumat verir: "Bildiyiniz kimi,

Kəmalə Ağayeva Naxçıvan şəhərində anadan olmuşdur. Yaradıcılığını əsasən mənəvi saflığa həsr edən xanım həm dramaturq kimi, həm də şairə kimi tanınmışdır. Kəmalə Ağayeva 15 mənzum, pyesin, 15 şeir kitabın, 200-ə qədər oçerk və bədii yazıların müəllifidir. Onun sevə-sevə qələmə aldığı "Məhsəti", "İsmət", "Apardı sellər saranı", "O bizim dağların oğludur", "Mənim Tanrım", "Göyçək Fatma", "Məlikməmməd" və s. müxtəlif əsərləri teatrlarda müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Xalq tərəfindən həmişə sevilən şairə xanım bu illər ərzində müxtəlif fəxri fərmanlar və medallarla təltif olunmuşdur. Hal-hazırda Azərbaycan Yazıçılar Birliyi və Teatr Xadimləri İttifaqının üzvü, Əməkdar incəsənət xadimidir. Sonra söz qonaqlara verilir. Qonaqlar da öz növbəsində Kəmalə xanımın yaradıcılığından söhbət açırlar, daha sonra oxucuların ifasında əsərlərindən parçalar dinlənilir. tərəfindən Və nəhayət ki, söz şairə Kəmalə xanıma verilir. Kəmalə xanım bir qədər öz həyat yolundan danışır.

"10 yaşımdan şeir yazırdım. Naxçıvanın bir şairəsi var, Heyran xanım, 6-cı sinifdə oxuyanda onun yaradıcılığını öyrənirdim. Mənə qəribə gəlmişdi ki, qadın da şeir yazarmış, ona görə də tam yaradıcılığı ilə tanış olmağa qərar verib oxudum. Bir də gördüm ki, qələmi alıb əlimə özüm də şeir yazmağa başlamışam. İlk şeirlərimi yazmağa belə başlamışam. İlk şeirimin adı "Bahar" oldu.

Gəlir sevimli şən bahar,.
Uçub gəlir gözəl quşlar, `
İnsanların ən sevdiyi,
Gözəl bahar, gözəl bahar.

Atam da şeir yazan idi, Sabiranə şeirlər yazırdı. Mən bu barədə sonralar bildim, özüm artıq şeirlər yazandan, çap olunandan sonra. Bir gün atam öz şeirlərini mənə göstərib dedi ki, mən satirik şeirlər yazıram, sən daha çox lirik üslubda işləyirsən. Məktəbdə biləndə ki, şeir yazıram, alıb divar qəzetlərinə verdilər. Sonra müəllimlərim göndərirdilər "Pioner" qəzetinə, başqa qəzetlərə. Heç bəzən özümün də xəbərim olmurdu.

Orta məktəbi bitirib Xarici Dillər İnstitutuna daxil oldum. Fransız dili üzrə təhsil alırdım. İnstitutda ədəbiyyat dərnəyi vardı. Rəfiqələrim şeytanladılar ki, Kəmalə şeir yazır, məni də cəlb etdilər dərnəyə. Qızlardan incidim ki, niyə məni satdınız? Elə bilirdim şeir yazmaq və üstəlik onu bəyan eləmək ayıb bir işdir. Dərnəkdə utandığımdan şeirlərimi oxuya bilmirdim. Dərs danışmağa da utanırdım. Müəllim gedib pəncərənin yanında dururdu, deyirdi səsin bura çatmasa, əla danışsan da iki yazacam. Dərnəkdə də gördülər öz şeirlərimi demək istəmirəm, başqa bir qıza oxutdurdular mənim şerlərimi. Qız şeiri deyib qurtaran kimi hamı qalxıb ayaq üstdə alqışladılar və müəllifin səhnəyə çıxmasını tələb elədilər. Yaşımla şeirlərim tərs mütənasib idi, məni görən deyirdi ola bilməz ki, bu şeirləri belə bir qızcığaz yazmış olsun. Gördüm məni çağırırlar, inanmazsınız girdim kreslonun altına, boy-buxunum da balaca, məni tapa bilmədilər. Bundan sonra mətbuatda çap olunan ilk şeirim "Hilal olaydım" oldu.

Ey hilal, hüsnünə salamlar olsun,
Dolan o göylərdə gözəlliyinlə,
Sən parla, hilallı axşamlar olsun,
Dol mənim ruhuma düzənliyinlə.

Hörmətli qonaqlar sonda mən onu qeyd etmək istəyirəm ki, oxucu heç kimə söyləmək istəmədiyi duyğularını, sözə çevirə bilmədiyi hisslərini oxuduğu şeirlərdə tapa bilirsə, onları mütləq sevəcək, dönə-dönə oxuyub əzbərləyəcək. Mən də bundan sonrakı ömrümü sizə gözəl-gözəl şeirlər, pyeslər yazmaqla başa vuracam. Əziz oxucular, gələn yubileyimdə görüşmək ümidilə sizlərdən ayrılıram."

Yubiley münasibətilə keçiriləcək tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə iki hissədən ibarət olur. Bu tədbir oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbiri təşkil edən kitabxanaçı bu gecəyə iki ay qabaqcadan hazırlaşır. Tədbirin ədəbi hissəsində şairə xanımın qələm yoldaşlarının, şair və yazıçıların çıxışları olmalı, bədii hissəsində isə Kəmalə Ağayevanın kiçik yaşlı uşaqlar üçün yazdığı "Məlikməmməd", "Göyçək Fatma" mənzum nağıl-pyeslərindən səhnəciklər göstərilməli, şeirlərinə yazılmış mahnılar dinlənilməlidir. İndi isə **"Könül verdiyim ellər"** adlı ədəbi-bədii gecənin ssenarisini nümunə üçün veririk.

***Könül verdiyim ellər,***
***Gülün dərdiyim ellər.***
***Görəsən yerindəmi,***
***Mənim gördüyüm ellər?***

adlı başlıq divardan asılır. Sənnə gül dəstələri ilə bəzədilir.

I aparıcı: Əziz və hörmətli qonaqlar! Sizi salamlayır, bu günkü tədbirimizə xoş gəlmisiniz deyirik. Bu gün poeziya aləmində ozünəxas üslubu, ifadə tərzi ilə seçilən şairə-dramaturq Kəmalə Ağayevanın 75 illik yubileyinə yığışmışıq. Bu münasibətlə tədbirdə iştirak edən qonaqları təbrik edirik. Çünki, bu gün tək Kəmalə Ağayevanın deyil həm də bütün şeir, sənət aləminin bayramıdır. Hörmətli qonaqlar, Kəmalə xanımın nəzərində Vətənini və xalqını böyük bir ürəklə sevmək, onun tərəqqisinə çalışmaq hamının vicdani borcudur. Onun poeziyasını səciyyələndirən xüsusuyyətlərdən biri də cəsarətli, ilhamlı yaradıcılıq ruhunun hakim olmasıdır. O, pyeslərində zamanın, dövrün xüsusiyyətlərini, ətrini, rəngini saxlamışdır. Kəmalə yaradıcılığına yaxından bələd olanlar bir fikirlə razılaşarlar ki, şairənin poeziyasında haqq sözün, daxili əqidənin, vicdani yaddaşın xeyir-duası var. Cəsarət və kövrəklik, həssaslıq və mülayimlik, təmkinlilik və coşğunluq onun yaradıcılığında qəribə bir vəhdət təşkil edir.

II aparıcı: Kəmalə Ağayevanın dramaturgiyası 60-cı illərdə, Azərbaycanın ilk qadın şairəsi Məhsəti Gəncəivinin həyat və yaradıcılığından bəhs edən "Məhsəti" mənzum faciəsi ilə başlanıb. Bu tamaşa böyük müvəffəqiyyətlə qarşılanaraq, teatr tənqitçiləri və ictimaiyyətin yüksək

qiymətini alıb. Mirzə İbrahimov, İlyas Əfəndiyev, Cəfər Cəfərov, Abbas Zamanov, Mehdi Hüseyn, Abbas Zamanov və başqaları mətbuat səhifələrində dəyərli fikirlər söyləyiblər. Bundan sonra bir-birinin ardınca yazılan "Apardı sellər Saranı", "Mənim Tanrım gözəllikdir, sevgidir", "Kaman səsi", "Sirli sözlər", "Gərək çıraq haqdan yana", "Unudulan sözlər" və s. kimi mənzum pyesləri yarandı. Eyni zamanda şairə xanım uşaqları da yaddan çıxarmamış, bir-birinin ardınca "Göyçək Fatma", "Məlikməmməd", "Tıq-tıq xanım" adlı nağıl-pyesləri də qələmə almışdır. İndi isə gəlin oxucuların İfasında "Göyçək Fatma" adlı mənzum-pyesdən bir parçanı dinləyək.

*Göyçək Fatma göy çəməndə oturub yun əyirir. İnək və xoruz da onun yanındadırlar. Fatma qəmli-qəmli oxuyur.*

Fatma:
Yetim qızam anam yox,
Bu dərdimi qanan yox,
Mən yanaram qəm ilə,
Heç halıma yanan yox.
Yetim qızam anam yox.
Ağlaram, hey ağlaram,
Dərdi pünhan saxlaram.
Həmdəm olan kimsə yox,
Mən qəmi qucaqlaram,
Ağlaram, hey ağlaram.

İnək:
Ürəyimi şan-şan etdin.
Ağlama, Fatma, ağlama!
Sən məni pərişan etdin,
Ağlama, Fatma, ağlama.

*( Fatma onları tumarlayır)*

Xoruz:
Ağlama, göyçək Fatma,
Saçları ipək Fatma!
Biz sənin dostlarınıq,
Sən deyilsən tək, Fatma.

Fatma:
Ay, xoruzum, inəyim,
Dərdim çoxdur neyləyim?
Söylənəcək kimsə yox,
Gəlin sizə söyləyim.

Xoruz və inək:
Söylə, söylə Fatmacan,

Dinləyək axşamacan.

Fatma: Analıq döyər məni,
Çöllərdə qoyar məni.
Məgər nə günahım var?
Bacım da söyər məni.

İnək: "Ağlama naçar ağlama!
Gündür keçər, ağlama!
Qapını bağlayan tanrı,
Bir gün açar, ağlama!"
Ağlama, Fatma, ağlama.
Xoruz: Ağlama, Fatma, ağlama!

*Fatma yumağını yerə qoyub, əllərini göylərə tutur və allaha yalvarır.*

Fatma: Allah, yalvarıram sənə,
Özün yardım eylə mənə.

*Bu dəm güclü yel əsərək yumağını alıb aparır. Fatma yumağın dalınca, inək və xoruz da Fatmanın dalınca qaçmağa başlayırlar.*

Yel baba, yel baba,
Yumağımı ver, baba!
İnək: A yel, insafın hanı?
İncitmə bu Fatmanı.
Xoruz: Yel baba, yel baba,
Sən yumağı ver, baba!

Fatma: Əgər onu verməsən,
Evə necə gedim mən?
Ögey anam döyəcək
Özün de, nə edim mən?
Yel baba, yel baba,
Yumağımı ver, baba!

*Yel yumağı fırladıb evin bacasından içəri salır. Fatmagil çatıb qapını döyürlər. İçəridən qarı nənənin səsi gəlir.*

Qarı Nənə: Kimdir o?

*Qarı qapını açıb astanada oturur. O çox iyrəncdir. Fatma ədəblə salam verir.*

Fatma: Yumağımı versənə.
Salam, ay qarı nənə,
Yumağımı versənə.
Onu yel atdı bura,

Acıqlanma sən mənə.

İnək: Hə, yel onu oynatdı...

Xoruz: Oynatdı ha oynatdı,
Axır bacadan atdı.

Qarı Nənə: Darıxma, gözəl qızım,
Bax, sənə var bir sözüm
Əgər baxsan başıma,
Yumağını verərəm,
Yaxşı qızsan, görürəm.

İnək: Fatma çox yaxşı qızdır

Xoruz: Mehribandır, əzizdir.

Fatma: *(Yaxın gedərək)*
Baxaram, qarı nənə.

Qarı Nənə: İndi de görüm mənə,
Mənim başım qəşəngdir,
Yoxsa ananın başı?

Fatma: Yox, səninki qəşəngdir,
Bu bitlər, bu birələr
Necə də rəngbərəngdi!

Qarı Nənə: Sağol, ağıllı balam,
Bu sözündən xoşhalam.
İndi al yumağını.

*Fatma yumağını alıb sevinir. Qarının evinə, həyatinə nəzər salır.*

Fatma: Nənə, qoy otağını
Təmizləyim bir qədər.

Qarı Nənə: Ay sağ ol, mənim balam,
Allah köməyin olsun.
Həmişə bax beləcə
Yumşaq ürəyin olsun.
*Fatma süpürgə götürüb süpürür.*

I aparıcı: Əziz qonaqlar! Hal-hazırda Kəmalə Ağayeva yaradıcılığını davam etdirərək şairə Heyran xanım haqqında mənzum-lirik pyes üzərində çalışır. İnanırıq ki, bu kitab da tezliklə işıq üzü görəcək və oxucular tərəfindən rəğbətlə qarşılanacaq. Sonda biz Kəmalə xanımı 75 illik yubileyi münasibətilə təbrik edir, ona cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq. Arzu edirik ki, Kəmalə xanım bundan sonra da öz yeni-yeni şeir, pyes və əsərləri ilə biz oxucuları tez-tez sevindirsin. İndi isə oxucuların ifasında "Kəmalə Xanım" adlı şeiri dinləyək.

I Oxucu: Məhsəti timsallı, Günəş ürəkli,
Natəvan, Kəminə, Heyran diləkli,
Elə dirəklisən, yurda gərəkli
Kəmalə xanım!
Amalın pak, əməlin pak, arzun pak,
Yurdumuzun taleyilə narahat.

Ucalt qadınlığı, göylərə ucalt
Kəmalə xanım!
Mələk xislətlisən, ahəstə səsli,
Bahar bəhərlisən, bahar nəfəsli,
Həmişə, hər zaman gənclik nəfəsli
Kəmalə xanım!
Özün xoşqılıqsan, sözün mehirli,
Qələmin hikmətli, sirli, sehirli,
Təbəssümlü çöhrən hər an fərəhli
Kəmalə xanım!
Ömür yaşayırsan yüksək ad, sanla,
Sən ki, fəxr edirsən Azərbaycanla,
Vətən sənə dönər hey damla-damla
Kəmalə xanım!

**S O N**

## İstifadə olunan ədəbiyyat:


1. Kəmalə. Bir gül kimi. İstanbul, 2003.-116 s.
2. Kəmalə. Əlixan Məhəlləsi, Bakı, 2010.-207 s.
3. Kəmalə. Könül verdiyim ellər. Bakı, 2006.-235 s.
4. Kəmalə. Qönçələr. Bakı,“Nurlan”, 2005.-170 s.
5. Kəmalə. Məhsəti. Bakı, 2001.-413 s.
6. Kəmalə. Vətənə sevdalıyam. Bakı, “Nurlan”, 2004.-132 s.


## İnternetdə:


www.google.az
wikipediya